**Hüseynova Sevinc Usub qızı,**
AMEA Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin böyük elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru

UOT 34:343.2/.7

# İNSAN ALVERİNƏ GÖRƏ MƏSULİYYƏT MÜƏYYƏN EDƏN CİNAYƏT QANUNVERİCİLİYİNİN İNKİŞAF TARİXİ VƏ CƏZA TƏYİNİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *İnsan alveri, qanunvericilik sistemi, cəza təyini, kriminal təzahür, normativ hüquqi aktlar, cinayət təqibi, pornoqrafik materiallar, fahişəliyə cəlb etmə, insanların istismarı.*

***Ключевые слова:*** *торговля людьми, законодательная система, назначение наказания, криминальные проявления, нормативные правовые акты, уголовное преследование, порнографические материалы, привлечение к проституции, эксплуатация людей.*

***Keywords:*** *human trafficking, legislative system, sentencing, criminal manifestations, normative legal acts, criminal prosecution, pornographic materials, involvement in prostitution, exploitation of people.*

Azərbaycan Respublikasında insan alveri və onunla bağlı kriminal əməllərə görə məsuliyyət müəyyən edən cinayət hüquq normaları, qanunvericilik sisteminin formalaşması Respublikamızda sovet hakimiyyətinin qurulduğu ilk illərə təsadüf edir. Belə ki, 1922-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsinin "Həyat, səhhət və şəxsiyyətin heysiyyətinə qarşı olan cinayətlər" adlı V fəslində insan alveri haqqında xüsusi norma olmasa da, belə əməllərlə bu və ya digər dərəcədə bağlı olan tamah məqsədi, intiqam və ya qeyri bir şəxsi məqsədlə başqasının uşağını oğurlamaq, gizlətmək və ya dəyişdirməyə görə 162-ci maddə müəyyən olunmuşdur. Maddəyə əsasən – ciddi təcridlə dörd ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. Sözü gedən Məcəllənin 171-ci maddəsinə əsasən oğraşlıq, əxlaqsızlıq yuvaları saxlamaq və həmçinin fahişəlik üçün qadın yığmağa görə – əmlakın tam və ya qismən müsadirəsi ilə üç ildən az olmayan müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşdur. Fahişəliyə cəlb edilmişlər təqsirləndirilən şəxsin himayəsində və ya asılılığında olmuşlarsa, yaxud yaşa dolmamışlarsa, cəza beş ildən az olmayan azadlıqdan məhrum etməyədək ağırlaşırdı [1, s. 104].

1927-ci il Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsində oxşar tərkiblərin bir qədər də genişləndirilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. 20 aprel 1936-cı il tarixli Qanunla Cinayət Məcəlləsinə əlavə edilmiş 102-2 maddəsi yaşadolmamışları müxtəlif cinayətlərdə iştirak etməyə təhrik və ya cəlb etmə, həmçinin yaşadolmamışları ehtikar, fahişəlik, dilənçilik və i.a. ilə məşğul olmağa məcbur etmək kimi əməllərə görə məsuliyyət nəzərdə tuturdu. Yəni beş ildən az olmayan müddətə həbsxanada saxlamaqla cəza təyin edilirdi (1936-cı il 20 aprel tarixli qərarla heç bir dəyişiklik edilmədən 102-2-ci maddə kimi Məcəllədə yerini dəyişmişdir) [2, s. 170].

Azərbaycan İctimai Şura Cümhuriyyətinin 1927-ci il Cəza Məcəlləsində insan alverinə görə konkret tərkib müəyyən edilməsə də, Məcəllənin 187-ci maddəsinə əsasən tamah, intiqam və ya qeyri bir şəxsi məqsədlə başqasının uşağını oğurlamağa, gizlətməyə və ya dəyişməyə görə – beş illik müddətə qədər azadlıqdan məhrum etmə cəzası; evlənmək məqsədilə qadının onun iradəsi əleyhinə aldatma yolu ilə qaçırmaq və ya oğurlamağa görə 189-cu maddə – beş illik müddətə qədər azadlıqdan məhrum etmə cəzası; azyaşlıları və yaşadolmamışları onların haqqında əxlaqsız hərəkətlər etmək yolu ilə əxlaqsızlaşdırmağa görə 194-cü maddə – beş illik müddətə qədər azadlıqdan məhrum etmə cəzası; fahişəliklə məşğul olmağa məcbur etmək, oğraşlıq, əxlaqsız və həmçinin fahişəlik üçün qadın yığmağa görə 198-ci maddədə isə – beş illik müddətə qədər azadlıqdan məhrum etmə cəzası müəyyən olunurdu. Qeyd edilən 198-ci maddədə nəzərdə tutulan əməllərin nəticəsində yaşadolmamışlar fahişəliyə cəlb edildikdə və ya həmin əməllər vəziyyəti ağırlaşdıracaq başqa hallarda edildikdə – səkkiz illik müddətə qədər azadlıqdan məhrum etməyə səbəb olurdu. Həmin əməllər vəziyyəti xüsusilə ağırlaşdıracaq hallarda edildikdə – səkkiz illik müddətə qədər azadlıqdan məhrum etməyə səbəb olurdu (1935-ci il 30 aprel tarixli qərarla maddənin 2-ci hissəsinin yeni redaksiyada verilmiş mətni) [2, s. 170].

Azərbaycan SSR 08 dekabr 1960-cı il tarixli Cinayət Məcəlləsində insan alveri və ya buna oxşar əməllərə görə konkret tərkib nəzərdə tutulmurdu. Buna baxmayaraq bəzi tərkiblər var idi ki, bunlar qadınların və yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarını etibarlı şəkildə qoruyurdu. 16 yaşına çatmamış şəxs barəsində əxlaqsız hərəkətlər etməyə görə 112-ci maddəyə əsasən – beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunurdu (1970-ci il 30 mart tarixli fərmanla maddənin yeni redaksiyada verilmişdir (Ali Sovetin Məlumatı, 1970-ci il, № 6, maddə 40) [3, s. 695], qanunsuz olaraq azadlıqdan məhrum etməyə görə 120-ci maddədə – bir ilədək müddətə azadlıqdan məhrumetmə və ya eyni müddətə islah işləri ilə cəza nəzərdə tutulurdu, zərər çəkən şəxsin həyatı və ya səhhəti üçün təhlükəli üsulla və ya ona fiziki iztirab verməklə azadlıqdan məhrumetmə isə – üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı, qəyyumluq hüquqlarından sui-istifadə etməyə görə həmin Məcəllənin 125-ci maddəsinə görə qəyyumluq və ya himayəçilikdən tamah məqsədilə istifadə etmə (yaşayış sahəsini tutma, miras qalmış əmlakdan istifadə etmə və i.a.) və qəyyumluğa götürülənləri nəzarətsiz və ya lazımi maddi köməksiz qoyma – İki ilədək müddətə islah işləri və ya üç yüz manatadək cərimə ilə cəzalandırılırdı (maddənin mətnində dəyişikliklər – Ali Sovetin Məlumatı, 1982-ci il № 24, maddə 292; Ali Sovetin Məlumatı, № 17, maddə 737; Ali Sovetin Məlumatı, 1995-ci il № 22, maddə 357) [3, s. 695]. Tamah məqsədilə, intiqam və ya sair şəxsi niyyət üzündən özgəsinin uşağını oğurlama və ya dəyişdirməyə görə 126-cı maddəyə görə üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı; qadını ərə getməyə məcbur etmə və ya onun ərə getməsinə mane olmağa görə 128-ci maddə nəzərdə tutulmuşdur. Bu maddəyə əsasən qadını zor göstərməklə və ya zor tətbiq etmə hədəsi ilə ərə getməyə məcbur etmə, habelə öz arzusuna görə ərə getməsinə mane olma – iki ilədək müddətə azadlıqdan məhrumetmə və ya bir ilədək müddətə islah işləri ilə və ya ictimai məzəmmətlə cəzalandırılırdı; qadını evlənmək məqsədilə oğurlamağa görə – 129-cu maddəyə əsasən – üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı. Eyni hərəkət nikah yaşına çatmayan şəxs barəsində edilərsə – beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı. Pornoqrafik predmetlər hazırlama və ya satmağa (maddənin mətninə əlavə və dəyişikliklər – Ali Sovetin Məlumatı, 1982-ci il № 24, maddə 292; Ali Sovetin Məlumatı, № 17, maddə 737; Ali

Sovetin Məlumatı, 1995-ci il № 22, maddə 357) (3, 792) görə 228-ci maddədə isə pornoqrafik yazıları, çap əsərlərini, təsvirləri və ya pornoqrafik xarakterdə olan sair predmetləri hazırlama, yayma və reklam etmə, habelə belə predmetlərlə alver etmə, satış və ya yayma məqsədilə onları saxlama – pornoqrafik predmetlər və onları istehsal edən vasitələr müsadirə edilməklə – üç ilədək müddətə azadlıqdan məhrumetmə və ya minimum əmək haqqı məbləğinin min mislindən min iki yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılırdı. Eyni zamanda Əxlaqsızlıq yuvaları saxlama və oğraşlığa (maddənin mətninə əlavə və dəyişikliklər – Ali Sovetin Məlumatı, 1985-ci il № 21, maddə 204; 1987-ci il № 15-16, maddə 153; 1992, № 17, maddə 737; 1992, № 20, maddə 881; 1995, № 22, maddə 357) görə 229-cu maddəyə əsasən əxlaqsızlıq yuvaları saxlama, habelə əxlaqsızlıq üçün oğraşlıq etmə və ya həmin məqsədlə qadınları cəlb etmə – beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırdı.

Spirtli içkilər içilməsi üçün əxlaqsızlıq yuvaları təşkiletmə və ya saxlama, eləcə də bu məqsədlər üçün müntəzəm olaraq binalar vermə – iki ilədək müddətə azadlıqdan məhrumetmə və ya eyni müddətə islah işləri və ya minimum əmək haqqı məbləğinin yeddi yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılır (1985-ci il 14 noyabr tarixli fərmanla əlavə edilmiş 2-ci hissənin mətni).

Narkotik vasitələrə aid olmayan dərman vasitələrindən və digər vasitələrdən istifadə etməklə beyni dumanlandırmaq üçün əxlaqsızlıq yuvaları təşkil etmə və ya saxlama və ya bu məqsədlər üçün binalar vermə – iki ilədək müddətə azadlıqdan məhrum etmə və ya eyni müddətə islah işləri və ya minimum əmək haqqı məbləğinin yeddi yüz mislindən səkkiz yüz mislinədək miqdarda cərimə ilə cəzalandırılırdı (1987-ci il 12 avqust tarixli fərmanla əlavə edilmiş 3-cü hissənin mətni). Bu cinayət tərkibləri insan alverinə görə birbaşa məsuliyyət nəzərdə tutmasa da, lakin ona oxşar və ya mahiyyət etibarilə insan alverinə və ya insanın istismarına görə məsuliyyət nəzərdə tuturdu [3, s. 793].

Azərbaycan Respublikasının 2000-ci il 01 sentyabr tarixdən qüvvəyə minmiş Cinayət Məcəlləsində insan alveri və ya belə əməllərə mahiyyət etibarilə yaxın olan müxtəlif tərkiblər qəsd etdiyi obyektə görə müxtəlif fəsillərdə yerləşdirilmişdir. Məsələn, Sülh və insanlıq əleyhinə olan cinayətlər kimi köləlik 106-cı maddə, cinsi zorakılıq 108-ci maddə, məcburi hamiləlik 108-1-ci maddə nəzərdə tutulmuşdur. Hər hansı əhalinin etnik tərkibini dəyişdirmək məqsədi və ya beynəlxalq hüququn başqa ciddi pozuntuları ilə müşahidə olunan zorla hamilə edilmiş qadını qanunsuz azadlıqdan məhrum etmə – on ildən on beş ilədək azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etməyə görə məsuliyyət nəzərdə tutan 137-ci maddə “Həyat və sağlamlıq əleyhinə olan cinayətlər” adlı XVIII fəslə daxil edilmişdir. Adam oğurluğuna görə cinayət məsuliyyəti nəzərdə tutan 144-cü maddə isə “Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər”in təsbit edildiyi XIX fəslə daxil edilmişdir.

Eləcə də Azərbaycan Respublikasının 2000-ci il Cinayət Məcəlləsində [4] “Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər” adlı XXII fəslinə insan alverini müşayiət edə biləcək cinayət tərkibləri – yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etməyə görə 171-ci maddə; özgənin uşağını dəyişdirməyə görə 172-ci maddə; qanunsuz olaraq övladlığa götürməyə görə 174-cü maddə nəzərdə tutulurdu.

Bundan başqa, 2000-ci il tarixli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayanın alqı-satqısı adlı 173-cü maddə 30 sentyabr 2005-ci il tarixli Qanunla CM-dən çıxarılmışdır. Azərbaycan Respublika-

sının Cinayət Məcəlləsinin "İctimai mənəviyyat əleyhinə cinayətlər" adlı XXVII fəslində də insan alverini müşayiət edən bir sıra əməllərə görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Belə ki, pornoqrafik materialları və ya əşyaları yayma və ya reklam məqsədilə qanunsuz hazırlama, yayma, reklam etmə, habelə pornoqrafik xarakterli nəşrlər, kino və ya video materiallar, şəkillər və sair əşyalar ilə qanunsuz ticarətə görə CM-nin 242-ci – Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma maddəsi ilə məsuliyyət nəzərdə tutulurdu. Eləcə də zor tətbiq etmək və ya zor tətbiq etmək hədəsi ilə, şantajla, əmlakı məhv etməklə və ya zədələməklə, yaxud aldatmaqla, gəlir və ya digər fayda əldə etmək məqsədi ilə fahişəliyə cəlb etməyə görə CM-nin 243-cü – Əxlaqsızlıq yuvaları saxlama maddəsi ilə məsuliyyət müəyyən edilmişdir.

Göründüyü kimi, əvvəlki cinayət qanunvericilikləri ilə müqayisədə Azərbaycan Respublikasının 01 sentyabr 2000-ci il tarixdə qəbul edilmiş Cinayət Məcəlləsi insan alveri ilə bağlı olan kriminal təzahürlərə görə mükəmməl tərkiblər müəyyənləşdirilmişdir. Bununla belə, Cinayət Məcəlləsi qüvvəyə mindikdən sonra insan alveri ilə bağlı olan əməllərə görə məsuliyyət nəzərdə tutan tərkiblər daha da təkmilləşdirilmiş və Cinayət Məcəlləsində nəzərdə tutulan tərkiblərə yuxarıda göstərilən bir sıra dəyərli əlavələr və dəyişikliklər edilmişdir. Bütün bunlar onu göstərir ki, insan alveri kimi müdhiş bir kriminal təzahürlə mübarizədə cinayət qanunvericiliyi mürəkkəb və çətin bir yol keçmişdir. Beynəlxalq və regional təşkilatların milli dövlətlərin tarixi təcrübəsi yekunlaşaraq, insan alveri ilə ədalətli və səmərəli mübarizəni təmin edəcək bir forma almışdır.

Göründüyü kimi, Respublikada hüquq islahatının aparılması istiqamətində böyük addımlar atılmışdır. Respublikanın qüvvədə olan Cinayət Məcəlləsi hazırlanarkən cinayət hüquq yaradıcılığı sahəsində müsbət beynəlxalq təcrübə nəzərə alınmışdır. Məcəllə ümumbəşəri prinsiplərə və nəzəri müddəalara söykənərək, özünün mühafizəedici mexanizmi ilə insanı, onun həyatının, səhhətini, hüquq və azadlıqlarını daha əhatəli müdafiə altına almışdır [7, s. 4]. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi həm də Azərbaycan Respublikası Cinayət Məcəlləsində insan alverinə qarşı mübarizə tədbirlərinə dair cinayət hüquq normalarının əlavə edilməsi zərurətini yaratdı. Buna görə də, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə İnsan alveri – 144-1-ci maddə ilə yanaşı, Məcburi əmək – 144-2 və İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfedensial məlumatları yayma – 316-1-ci maddələr əlavə edildi.

CM-in 144-1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin şərhi zamanı ilk növbədə "İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" BMT-nin 1950-ci il 21 mart tarixli Konvensiyasına, "İnsan alverinə qarşı mübarizə haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununa, "Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 6 may 2004-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamına, Azərbaycan Respublikası adından 2000-ci il dekabrın 12-də Palermo şəhərində imzalanan və 2003-cü il mayın 13-də Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilən BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoluna, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında"

2005-ci il 25 noyabr tarixli Sazişin müddəalarına istinad olunmalıdır [6, s. 496].

Bütün bunlar onu göstərir ki, Azərbaycanın Beynəlxalq Birlik qarşısında götürdüyü öhdəliklərə müvafiq olaraq insan alveri kimi fenomen kriminal təzahürlə səmərəli mübarizəni təmin etmək üçün ölkəmizin cinayət qanunvericiliyi müəyyən inkişaf yolu keçmiş və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə insan alverinə görə məsuliyyət müəyyən edən 144-1 maddəni tamamilə düzgün hesab edərək əlavə etmişdir. İnsan alveri, yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi – beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 144-1.2. Eyni əməllər: 144-1.2.1. İki və ya daha çox şəxs barəsində törədildikdə; 144-1.2.3. yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; 144-1.2.4. təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə; 144-1.2.4-1. insan alveri qurbanını Azərbaycan Respublikasının dövlət sərhədindən keçirməklə törədildikdə; 144-1.2.5. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; 144-1.2.6. təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə; 144-1.2.7. həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya belə zor tətbiq etmək hədəsi ilə törədildikdə; 144-1.2.8. zərərçəkmiş şəxsə işgəncə verməklə və ya onunla qəddar, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan rəftar etməklə törədildikdə; 144-1.2.9. zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədilə törədildikdə – səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 144-1.3. Bu məcəllənin 144-1.1 və 144-1.2-ci maddələrində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda – on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [5].

Əlbəttə, yuxarıda şərh etdiyimiz 144-1-ci maddə hazırda qüvvədə olan Cinayət Qanunvericiliyində təsbit edilmiş normanın təkmil formasıdır.

Bildiyimiz kimi 30 sentyabr 2005-ci il tarixli 1020-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Məcəlləyə 144-1-ci maddə əlavə edilmişdir. 7 mart 2012-ci il tarixli 314-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 42.0.8-ci maddə çıxarıldığından, əmlak müsadirəsi olan cəza növü 144-1-ci maddədən də çıxarılmışdır.

Həmçinin 19 aprel 2013-cü il tarixli 610-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə 144-1.1-ci maddədə "şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün" sözləri "zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsi məqsədi ilə" sözləri ilə əvəz edilmişdir.

Eyni zamanda 19 aprel 2013-cü il tarixli 610-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə yeni məzmunda 144-1.2.4-1-ci maddə əlavə edilmişdir.

Və nəhayət 19 aprel 2013-cü il tarixli 610-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə "Qeyd" hissəsinə yeni məzmunda 3-cü bənd əlavə edilmişdir [8].

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsi (1922-ci il) // Cinayət Qanunları Külliyyatı (1920-2000). Bakı: Hüquq Yayın Evi, 2014, 1184 s.
2. Azərbaycan İctimai Şura Cümhuriyyətinin Cəza Məcəlləsi (1927-ci il) // Cinayət Qanunları Külliyyatı (1920-2000). Bakı: Hüquq Yayın Evi, 2014, 1184 s.
3. Azərbaycan SSR Cinayət Məcəlləsi (1960) // Cinayət Qanunları Külliyyatı (1920-2000). Bakı: Hüquq Yayın Evi, 2014, 1184 s.
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2002, 252 s.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Digesta, 2018, 472 s.
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası / hüquq elmləri doktoru, professor Firudin Yusif oğlu Səməndərovun redaktəsi ilə. Bakı, 2018, 704 s.
7. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: Hüquq Yayın Evi, 2018, 724 s.
8. http://www.e-qanun.az/code/11


**Гусейнова Севиндж Усуб гызы**

**ИСТОРИЯ РАЗВИТИЯ УГОЛОВНОГО ЗАКОНОДАТЕЛЬСТВА, ОПРЕДЕЛЯЮЩЕГО ОТВЕТСТВЕННОСТЬ ЗА ТОРГОВЛЮ ЛЮДЬМИ И ВОПРОСЫ ОПРЕДЕЛЕНИЯ НАКАЗАНИЯ**

**РЕЗЮМЕ**

В статье анализируются нормы уголовного права, определяющие ответственность за торговлю людьми и связанные с ними криминальные деяния, а также исследуется формирование истории законодательной системы. Исследование посвящено истории развития уголовного права, которое определяет ответственность за торговлю людьми и проблемы определению наказания. Начиная с первого Уголовного Кодекса, принятого Азербайджанской Республикой, и заканчивая действующим законодательством, нормы торговли людьми, гипотеза и расположение существующего уголовного кодекса, который по существу близок к криминальным структурам, сопровождающим торговлю людьми, были интерпретированы, детальный анализ был проведен.

**Huseynova Sevinj Usub**

**THE HISTORY OF THE DEVELOPMENT OF CRIMINAL LAW DEFINING LIABILITY FOR TRAFFICKING IN PERSONS AND SENTENCING ISSUES**

**SUMMARY**

The article analyzes the norms of criminal law that determine responsibility for trafficking in persons and the related criminal act, and explores the formation of the history of the development of legislative system. The study is devoted to the history of the development of criminal law, which defines the responsibility for trafficking in persons and the problems of determining punishment. Starting with the first Criminal Code adopted by the Republic of Azerbaijan and ending with current legislation, the norms of trafficking in persons, the hypothesis and location of the existing criminal code, which is essentially close to the criminal structures that accompany trafficking in persons, were interpreted, providing detailed analysis of the subject.

**Rəyçi: h.ü.f.d., dos. R.Ə.Güləliyeva**
**Təqdim edən: h.ü.e.d., prof. M.Qəfərov**
**Daxil olma tarixi: 10.02.2020**
**Təkrar işlənmə tarixi: 05.03.2020**
**Çapa imzalanma tarixi: 25.03.2020**